# Professor Məmməd Əliyevin "Həsrətin o üzü" romanının dördüncü hissəsi işıq üzü görüb

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsinin müdiri filologiya elmləri doktoru, professor Məmməd Əliyevin "Həsrətin o üzü" romanının dördüncü hissəsi "Bir uzaq yaşıl ada" adı ilə işıq üzü görüb.**

"Bir uzaq yaşıl ada" roman-epopeyasının "Ədəbiyyat nəzəriyyəçiliyindən akademizmə" adlı ön sözünün müəllifi AMEA-nın prezidenti akademik İsa Həbibbəylidir.

Kitabın redaktoru Aysel Şeydayeva, rəssamı Minayə Feyzullayeva, texniki redaktoru Rəna Əhmədova, kompüterdə yığanı




Suqrət Məmmədova, dizayneri Nigar Tağıyevadır.

Romanın dördüncü hissəsi 3 hissədən ibarətdir. Kitabda filologiya elmləri doktoru, professor Nizami Tağısoyun Azərbaycan, rus və ingilis dillərində "Bir uzaq yaşıl ada" romanının bədii-fəlsəfi diskursu və müəllifin təhkiyə pradiqması" sərlövhəli irihəcmli araşdırması da verilib.

Romanda Azərbaycanda XX yüzilliyin 80-90-cı illərində yaşanan ictimai-siyasi vəziyyət, erməni təcavüzünün faciəvi nəticələri geniş təsvir olunmaqla əsərin baş qəhrəmanı Muradın şəxsi həyatında baş verən gərgin və böhranlı hadisələrdən danışılır.

Elm Ş.- 2025.- 18 iyul (№25).- S.6.